# Xalq yazıçısı Anarla görüş



**İkinci Türk Dünyası Ədəbiyyat və Kitab Festivalı (II LitBookFest) çərçivəsində Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anarla görüş keçirilib.**

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli çıxış edərək kitab festivalın əhəmiyyətindən danışıb. Kitab festivalı çərçivəsində görkəmli yazıçılarla, sənət adamları ilə görüşlərin keçirilməsi ənənəsinin bütün dünyada mövcud olduğunu söyləyən alim görkəmli yazıçı və tanınmış ictimai xadim Anarın çoxcəhətli yaradıcılıq fəaliyyətindən bəhs edib.

Akademik İsa Həbibbəyli Xalq yazıçısı Anarın Azərbaycanda ideologiyadan kənar, xalqa xidmət edən ədəbiyyat yaratdığını və ədibin xalqımızı milli istiqlal uğrunda mübarizəyə hazırlayan ədəbiyyatın yaradıcılarından biri olduğunu qeyd edib.

Anarın türk dünyasında böyük nüfuza malik görkəmli yazıçı olduğunu söyləyən akademik İsa Həbibbəyli ədibin əsərlərinin Qərbin və Şərqin 40-a yaxın dilinə tərcümə olunduğunu diqqətə çatdırıb. O, Anarın bu yaxınlarda türk dünyası ədəbiyyatının inkişafındakı xidmətlərinə görə Özbəkistan Respublikasının “Dostluq” ordeni ilə təltif olunduğunu xatırladıb. Həmçinin yazıçının TÜRKSOY-un Türk Dilində Danışan Ölkələrin Yazarlar Birliyinin başqanı seçildiyini bildirib.

Sonda Xalq yazıçısı Anar çıxış edərək tədbirin təşkilatçılarına, iştirakçılarına, diqqətli oxucularına minnətdarlığını bildirib.

---

Xalq qəzeti .- 2023.- 7 iyun.- S.9.